Azərbaycan Respublikası Vergilər Nazirliyinin
Kollegiyasının 19 avqust 2019-cu il tarixli
1917050000011400 nömrəli qərarı ilə
təsdiq edilmişdir

Azərbaycan Respublikasının Vergilər Nazirliyi Kollegiyasının 2016-cı il 7 sentyabr tarixli 1617050000011400 nömrəli qərarı ilə təsdiq edilmiş "Səyyar vergi yoxlamasının keçirilməsi Qaydaları"na edilmiş dəyişikliklər:

**1.** 3.0.1-ci yarımbənddə "Vergi Məcəlləsinə müvafiq olaraq vergi ödəyicisi hesab edilən hüquqi və fiziki şəxslər" sözləri "hüquqi şəxslər, fərdi sahibkarlar, sığortaedənlər" sözləri ilə əvəz edilsin.

**2.** 4.0.4-cü yarımbənd ləğv edilsin.

**3.** 5-ci hissə üzrə:

**3.1.** 5.0.5-ci yarımbəndə "Vergi ödəyicilərinin" sözlərindən sonra "və ya sığortaedənlərin" sözləri əlavə edilsin;

**3.2.** 5.0.10-cu yarımbənddə "vergi qanunvericiliyinin pozulması ilə bağlı vergi ödəyicilərinə" sözləri "vergi qanunvericiliyinin və ya sosial sığorta və işsizlikdən sığorta haqqında qanunvericiliyin (məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə) pozulması ilə bağlı vergi ödəyicilərinə və ya sığortaedənlərə" sözləri ilə əvəz edilsin;

**3.3**. 5.0.12-ci yarımbənddə "vergi qanunvericiliyinin" sözləri "və ya sığortaedənlərdən vergi qanunvericiliyinin və ya sosial sığorta və işsizlikdən sığorta haqqında qanunvericiliyin (məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə)" sözləri ilə əvəz edilsin.

**4.** 6-cı hissə üzrə:

**4.1.** 6.2-ci bənddə "qərarına" sözü "Səyyar vergi yoxlamasının keçirilməsi haqqında Qərar"ına (Əlavə 2)" sözləri ilə əvəz edilsin;

**4.2**. 6.8-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Səyyar vergi yoxlamasının keçirilməsi haqqında Qərar" yuxarı vergi orqanı tərəfindən ləğv edilərkən "Səyyar vergi yoxlamasının keçirilməsi haqqında Qərarın ləğv edilməsi barədə Qərar" (Əlavə 31) qəbul olunur.";

**4.3.** 6.9-cu bəndə “vergi ödəyicisinin” sözlərindən sonra “və ya sığortaedənin” sözləri əlavə edilsin.

**5.** 7-ci hissə üzrə:

**5.1.** 7.1-ci və 7.2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“7.1. Vergi bəyannamələrinin (hesabatların) vergi orqanına təqdim edilmə müddəti bitmədiyi halda (vergi ödəyicisinin və ya sığortaedənin həmin dövrün yoxlama ilə əhatə olunması barədə müraciəti olduğu hallar istisna olmaqla) həmin dövrün səyyar vergi yoxlaması ilə əhatə edilməsi yolverilməzdir.

7.2. Hüquqi şəxsin ləğv edilməsi, yenidən təşkil edilməsi və ya fərdi sahibkarın sahibkarlıq fəaliyyətinə xitam verilməsi barədə, habelə sığortaedənin uçotdan çıxarılması barədə müraciəti olduqda yoxlama ilə vergi ödəyicisinin və ya sığortaedənin sonuncu hesabat dövrünədək olan fəaliyyəti əhatə edilməlidir.”;

**5.2.** 7.3-cü bənddən “vergi növlərinə görə Vergi Məcəlləsi ilə müəyyən edilən dövr üzrə” sözləri çıxarılsın;

**5.3.** 7.3.1-ci yarımbənddən “, yol” sözü çıxarılsın;

**5.4.** 7.3.2-ci yarımbəndə “vergilər” sözündən sonra “, habelə işsizlikdən sığorta haqları” sözləri əlavə edilsin;

**5.5.** 7.3.3-cü yarımbəndə “vergi ödəyicisinin” sözlərindən sonra “və ya sığortaedənin” sözləri əlavə edilsin;

**5.6.** Aşağıdakı məzmunda 7.3-1-ci bənd əlavə edilsin:

“7.3-1. Səyyar vergi yoxlamasının əhatə etdiyi dövrlərlə bağlı bu Qaydaların 7.3.1-ci və 7.3.2-ci yarımbəndlərində müəyyən edilmiş məhdudiyyətlər məcburi dövlət sosial sığorta haqqına münasibətdə tətbiq edilmir.”;

**5.7.** 7.6-cı bənddə “vergi ödəyicisi olan hüquqi şəxsin ləğv edilməsi, yenidən təşkil edilməsi və ya fiziki şəxsin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətinə xitam verilməsi” sözləri “hüquqi şəxsin ləğv edilməsi, yenidən təşkil edilməsi və ya fərdi sahibkarın sahibkarlıq fəaliyyətinə xitam verilməsi barədə, habelə sığortaedənin uçotdan çıxarılması” sözləri ilə əvəz edilsin.

**6.** 8-ci hissə üzrə:

**6.1.** 8.6-cı bənd ləğv edilsin;

**6.2.** 8.16-cı bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Bu zaman “İnventarizasiyanın müddətinin artırılması haqqında Qərar” (Əlavə 15-3) qəbul edilir.”;

**6.3.** 8.17-ci bəndə və “vergi ödəyicisinin” sözlərindən sonra “və ya sığortaedənin” sözləri əlavə edilsin;

**6.4.** 8.18.1-ci yarımbəndə “Vergi ödəyicisində” sözlərindən sonra “və ya sığortaedəndə” sözləri əlavə edilsin;

**6.5.** 8.18.2-ci yarımbəndə “(onu əvəz edən şəxs)” sözləri “(onu əvəz edən şəxs və ya vergi və ya maliyyə məsələləri üzrə məsul şəxs), sığortaedən” sözləri ilə əvəz edilsin.

**7.** 9-cu hissə üzrə:

**7.1.** 9.1-ci bənddə “Yuxarı vergi orqanının razılığı ilə səyyar” sözləri “Səyyar” sözü ilə əvəz edilsin;

**7.2.** 9.3-cü bənddən “beynəlxalq əməkdaşlıq və” sözləri çıxarılsın;

**7.3.** 9.4-cü bəndə “vergi ödəyicisi” sözlərindən sonra “və ya sığortaedən” sözləri əlavə edilsin;

**7.4.** 9.7-ci bəndə “vergi ödəyicisinə” sözlərindən sonra “və ya sığortaedənə” sözləri əlavə edilsin.

**8.** 10-cu hissə üzrə:

**8.1.** adında “Vergi ödəyiciləri” sözlərindən sonra “və ya sığortaedənlər” sözləri əlavə edilsin;

**8.2.** 10.1-ci, 10.2-ci və 10.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

“10.1. Səyyar vergi yoxlaması zamanı vergi orqanının vergi ödəyicisinə, sığortaedənə və ya vergi ödəyicisinin, sığortaedənin vergi orqanına tələbi yazılı şəkildə və ya elektron formada tərtib edilməmişdirsə və bir tərəf onu digər tərəfə verməmişdirsə, belə tələblərin heç biri vergi orqanı və ya vergi ödəyicisi, sığortaedən üçün hüquqi qüvvəyə malik deyildir.

10.2. Vergi orqanının vergi ödəyicisinə və ya sığortaedənə göndərdiyi hər hansı qərar, akt, bildiriş, tələbnamə, məktub və ya digər sənədlər (onların surətləri) adı göstərilməklə vergi orqanının rəhbəri (onun müavini) tərəfindən imzalanmalı və möhürlə təsdiq edilməlidir. Elektron üsulla göndərilən sənədlərin möhürlə təsdiq edilməsi tələb olunmur.

10.3. Sənədlər (onların surətləri) vergi orqanı tərəfindən vergi ödəyicisinə və ya sığortaedənə Vergi Məcəlləsinin 70.2-1-70.2-2-ci maddələrinin tələblərinə uyğun göndərildikdə (verildikdə), lazımi qaydada çatdırılmış sayılır.”;

**8.3.** 10.5-ci bəndə “vergi ödəyicisinə” sözlərindən sonra “və ya sığortaedənə” sözləri əlavə edilsin.

**9.** 11-ci hissə üzrə:

**9.1.** 11.2-ci bəndə “sahibkarlıq fəaliyyəti” sözlərindən sonra “və ya sığortaedənin təsərrüfat fəaliyyəti” sözləri əlavə edilsin;

**9.2.** 11.3-cü bəndə hər iki halda, 11.4-cü bəndə hər üç halda, 11.9-cu bəndə və 11.18-ci bəndə hər iki halda ismin müvafiq hallarında “vergi ödəyicisi” sözlərindən sonra ismin müvafiq hallarında “və ya sığortaedən” sözləri əlavə edilsin;

**9.3.** 11.6-cı bəndə “Vergi ödəyicisinin” sözlərindən sonra “və ya sığortaedənin” sözləri əlavə edilsin;

**9.4.** 11.12-ci bəndə “Vergi qanunvericiliyinin” sözlərindən sonra “və ya sosial sığorta və işsizlikdən sığorta haqqında qanunvericiliyin (məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə)” sözləri əlavə edilsin;

**9.5.** 11.19-cu bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Səyyar vergi yoxlaması zamanı sığortaedənə əlavə olaraq məcburi dövlət sosial sığorta və ya işsizlikdən sığorta haqqı hesablandıqda bu hesablama əsaslandırılmalı, habelə sığortaedənin kommersiya və bank sirri qorunmalıdır.”.

**10.** 12.0.1-ci yarımbəndə “vergi ödəyicilərinin” sözlərindən sonra “və ya sığortaedənlərin” sözləri əlavə edilsin.

**11.** 13-cü hissə üzrə:

**11.1.** adında “vergi ödəyicilərinin” sözlərindən sonra “və ya sığortaedənlərin” sözləri əlavə edilsin;

**11.2.** 13.1-ci bənd üzrə:

**11.2.1.** birinci cümlədə “seçilməsi təsərrüfat subyektləri və fəaliyyət sahələri üzrə vergidən yayınma risklərinin qiymətləndirilməsinə və riskli vergi ödəyicilərinin” sözləri “və ya sığortaedənin seçilməsi müvafiq olaraq təsərrüfat subyektləri və fəaliyyət sahələri üzrə vergidən və ya məcburi dövlət sosial sığorta və ya işsizlikdən sığorta haqlarından yayınma risklərinin qiymətləndirilməsinə və riskli vergi ödəyicilərinin və ya sığortaedənlərin” sözləri ilə əvəz edilsin;

**11.2.2.** ikinci cümlədə “vergi ödəyicilərinin” sözlərindən sonra “və ya sığortaedənlərin” sözləri əlavə edilsin;

**11.3.** 13.3.4-cü yarımbəndə “vergi ödəyicisinin” sözlərindən sonra “və ya sığortaedənin artıq ödənilmiş məcburi dövlət sosial sığorta və ya işsizlikdən sığorta haqlarının qaytarılması barədə” sözləri əlavə edilsin;

**11.4.** 13.3.5-ci yarımbəndə “(azaldılmasının)” sözündən sonra “və ya sığortaedən tərəfindən məcburi dövlət sosial sığorta və ya işsizlikdən sığorta haqları üzrə ödəmənin yayındırılmasının (azaldılmasının)” sözləri əlavə edilsin;

**11.5.** 13.3.8-ci yarımbəndə “verilməsi” sözündən sonra “, habelə sığortaedənin uçotdan çıxarılması” sözləri əlavə edilsin;

**11.6.** 13.6-cı bənddə “aşkar edilmiş verginin hesablanması üçün əlavə sənəd və ya mənbəyi məlum olan digər məlumatlarla əlaqədar vergi ödəyicisinə dəqiqləşdirilmiş vergi bəyannaməsinin 10 iş günü müddətində təqdim edilməsi barədə bildiriş göndərildikdən sonra da dəqiqləşdirilmiş bəyannamə” sözləri “verginin və ya məcburi dövlət sosial sığorta və ya işsizlikdən sığorta haqqının hesablanması üçün əlavə sənəd və ya mənbəyi məlum olan digər məlumat aşkar edildiyi üçün vergi ödəyicisinə və ya sığortaedənə dəqiqləşdirilmiş vergi bəyannaməsinin və ya hesabatın 10 iş günü müddətində təqdim edilməsi barədə bildiriş göndərildikdən sonra da dəqiqləşdirilmiş bəyannamə və ya hesabat” sözləri ilə əvəz edilsin;

**11.7.** 13.3.9-cu yarımbəndə “vergi ödəyiciləri” sözlərindən sonra “və ya sığortaedənlər” sözləri əlavə edilsin;

**12.** 14-cü hissə üzrə:

**12.1.** 14.1-ci bəndə “qanunvericiliyinə” sözündən sonra “, habelə sosial sığorta və işsizlikdən sığorta haqqında qanunvericiliyə (məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə)” sözləri əlavə edilsin;

**12.2.** 14.3-cü bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Qərarda mənfəət, gəlir, əmlak və torpaq vergiləri üzrə yoxlanılan təqvim illəri qeyd edilir.”;

**12.3.** 14.4-cü bənddə “əlbəəl, elektron şəkildə və ya poçt vasitəsi ilə” sözləri “və ya sığortaedənə” sözləri ilə əvəz edilsin;

**12.4.** 14.5-ci bəndə “Vergi ödəyicisinə” sözlərindən sonra “və ya sığortaedənə” sözləri, “vergi ödəyicisinin” sözlərindən sonra “və ya sığortaedənin” sözləri əlavə edilsin;

**12.5.** 14.7-ci bəndə “Vergi ödəyicisinin” sözlərindən sonra “və ya sığortaedənin” sözləri əlavə edilsin;

**12.6.** 14.8-ci bəndə “Vergi ödəyicisi” sözlərindən sonra “və ya sığortaedən” sözləri, “vergi ödəyicisini” sözlərindən sonra “və ya sığortaedəni” sözləri əlavə edilsin;

**12.7.** 14.10-cu bəndə “surətini” sözündən sonra “və ya sığortaedənə “Səyyar vergi yoxlamasının keçirilməsi haqqında Qərar”ın və yoxlama növbətidirsə, “Növbəti səyyar vergi yoxlamasının keçirilməsi haqqında Bildiriş”in təsdiq edilmiş surətini” sözləri əlavə edilsin;

**12.8.** 14.11-ci bənd ləğv edilsin;

**12.9.** 14.12-ci bəndə “vergi ödəyicisinə” sözlərindən sonra “və ya sığortaedənə” sözləri əlavə edilsin;

**12.10.** 14.16-cı bənddə “(şəxsin)” sözü “və ya sığortaedənin” sözləri ilə əvəz edilsin;

**12.11.** 14.17-ci bənd üzrə:

**12.11.1.** birinci cümlədə “vergi ödəyicisinin” sözlərindən sonra “və ya sığortaedənin” sözləri əlavə edilsin;

**12.11.2.** ikinci cümlədə “AVİS-də olan məlumatlarla faktiki məlumatlar arasında uyğunsuzluq (nizamnamə kapitalı, təsisçilər, onların payları, rəhbər, ünvanlar, əlaqə telefonları, fəaliyyət növləri və s. üzrə olan fərq və ya kənarlaşmalar) aşkar edildikdə yoxlama başa çatanadək həmin vergi ödəyicisindən nöqsanların aradan qaldırılması tələb edilməli” sözləri “Yoxlama zamanı vergi ödəyicisinin və ya sığortaedənin uçot məlumatlarından fərqli məlumatlar əldə olunarsa, bu halda Vergi Məcəlləsinin 34.7.2-ci maddəsinin tətbiqi məqsədləri üçün aidiyyəti uçot strukturuna məlumat verilməli” sözləri ilə əvəz edilsin;

**12.12.** 14.19-cu bənddə “Əlavə 35” sözləri “Əlavə 12-1” sözləri ilə əvəz edilsin.

**13.** 15-ci hissə üzrə:

**13.1.** 15.1-ci bəndə ismin müvafiq hallarında “sahibkarlıq fəaliyyəti” sözlərindən sonra ismin müvafiq hallarında “və ya sığortaedənin təsərrüfat fəaliyyəti” sözləri əlavə edilsin;

**13.2.** 15.2-ci bəndə “vergi ödəyicisinin” sözlərindən sonra “və ya sığortaedənin” sözləri əlavə edilsin;

**13.3.** 15.4-cü bəndə “Vergi ödəyicisinə” sözlərindən sonra “və ya sığortaedənə” sözləri, “sahibkarlıq fəaliyyətinə” sözlərindən sonra “və ya sığortaedənin təsərrüfat fəaliyyətinə” sözləri əlavə edilsin;

**13.4.** 15.5-ci bənddə “vergi ödəməkdən” sözləri “vergi və ya sığortaedənin məcburi dövlət sosial sığorta və ya işsizlikdən sığorta haqlarını” sözləri ilə əvəz edilsin;

**13.5.** 15.6-cı bəndə “vergi ödəyicisi” sözlərindən sonra “və ya sığortaedən” sözləri əlavə edilsin;

**13.6.** 15.10-cu bəndə “Vergi ödəyicisi” sözlərindən sonra “və ya sığortaedən” sözləri əlavə edilsin, “Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə” sözləri “Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinə” sözləri ilə əvəz edilsin;

**13.7.** 15.11-ci bəndə “vergi ödəyicisinin” sözlərindən sonra “və ya sığortaedənin” sözləri əlavə edilsin;

**13.8.** 15.12.10-cu yarımbənddən “, mühasibat balansının” sözləri çıxarılsın.

**14.** 16-cı hissə üzrə:

**14.1.** 16.2-ci bənd ləğv edilsin;

**14.2.** 16.4.1-ci yarımbəndə ismin müvafiq hallarında “vergi ödəyicisi” sözlərindən sonra ismin müvafiq hallarında “və ya sığortaedən” sözləri əlavə edilsin;

**14.3.** 16.4.2-ci yarımbənd ləğv edilsin;

**14.4.** 16.4.3-cü yarımbəndə “vergi ödəyicisinin” sözlərindən sonra “və ya sığortaedənin” sözləri əlavə edilsin;

**14.5.** 16.4.5-ci yarımbəndə “qanunvericiliyinin” sözündən sonra “, habelə sosial sığorta və işsizlikdən sığorta haqqında qanunvericiliyin (məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə)” sözləri əlavə edilsin;

**14.6.** 16.4.6-cı, 16.4.9-cu, 16.4.11-ci, 16.4.12-ci, 16.4.30-cu, 16.4.31-ci yarımbəndlərə və 16.5-ci bəndə ismin müvafiq hallarında “vergi ödəyicisi” sözlərindən sonra ismin müvafiq hallarında “və ya sığortaedən” sözləri əlavə edilsin;

**14.7.** 16.4.7-ci yarımbəndə “vergi ödəyicisinin” sözlərindən sonra “və ya sığortaedənin” sözləri, “sahibkarlıq fəaliyyəti” sözlərindən sonra “və ya sığortaedənin təsərrüfat fəaliyyəti” sözləri əlavə edilsin;

**14.8.** 16.4.19-cu və 16.4.20-ci yarımbəndlərə “bəyannamələrin” sözündən sonra “və ya hesabatların” sözləri əlavə edilsin;

**14.9.** 16.4.25-ci yarımbəndə “vergilərin” sözündən sonra “, məcburi dövlət sosial sığorta və ya işsizlikdən sığorta haqlarının” sözləri əlavə edilsin.

**15.** 17-ci hissə üzrə:

**15.1.** 17.3-cü bənddə “Vergilər Nazirliyinin” sözləri “vergi orqanının” sözləri ilə əvəz edilsin;

**15.2.** 17.3.3-cü yarımbənddə “mallar” sözü “, məcburi nişanlama ilə nişanlanmalı olan, ancaq nişanlanmamış mallar, habelə markalanmalı olan, lakin markalanmamış dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarında), audio və videomateriallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materialları” sözləri ilə əvəz edilsin;

**15.3.** 17.6-cı bəndə “mühasibat” sözündən sonra “uçotu” sözü əlavə edilsin;

**15.4.** 17.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

“17.9. Əmtəə-material ehtiyatlarının, əmlakın faktiki mövcudluğu haqqında məlumatları özündə əks etdirən inventarizasiya siyahıları (Əlavə 15-1) və inventarizasiya aktları (Əlavə 15-2) iki nüsxədən az olmamaqla tərtib olunmalı və iş sənədlərinə əlavə edilməlidir.”;

**15.5.** 17.21-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Vergi ödəyicisinin uçot məlumatlarında göstərilən malların faktiki olaraq onun sahibliyində olmadığı aşkar edildikdə vergilər yoxlama ilə əhatə edilən sonuncu hesabat dövrü üzrə hesablanır.”.

**16.** 18-ci hissə üzrə:

**16.1.** 18.1-ci bənddə “Vergi yoxlamasının keçirilməsi üçün zəruri olan sənədlərin təqdim edilməsi haqqında Tələbnamə” (Əlavə 5) öndərilməlidir” sözləri “ və ya sığortaedənə “Vergi yoxlamasının keçirilməsi üçün zəruri olan sənədlərin təqdim edilməsi haqqında Tələbnamə” (Əlavə 5) göndərməlidir” sözləri ilə əvəz edilsin;

**16.2.** 18.2-ci bəndin birinci və üçüncü cümlələrinə ismin müvafiq hallarında “vergi ödəyicisi” sözlərindən sonra ismin müvafiq hallarında “və ya sığortaedən” sözləri, ikinci cümləsinə “Vergi ödəyicisi” sözlərindən sonra “və ya sığortaedən” sözləri əlavə edilsin;

**16.3.** 18.4-cü bəndin birinci cümləsinə “vergi ödəyicisi” sözlərindən sonra “və ya sığortaedən” sözləri əlavə edilsin.

**17.** 19-cu hissə üzrə:

**17.1.** 19.1-ci bəndə “sahibkarlıq fəaliyyətini” sözlərindən sonra “və ya sığortaedənin təsərrüfat fəaliyyətini” sözləri, “həmin vergi ödəyicisində” sözlərindən sonra “və ya həmin sığortaedəndə” sözləri əlavə edilsin;

**17.2.** 19.3-cü bəndin birinci cümləsinə “vergi ödəyicisi” sözlərindən sonra “və ya sığortaedən” sözləri əlavə edilsin;

**17.3.** 19.4-cü bəndin birinci cümləsində “Vergi ödəyicisi” sözlərindən sonra “və ya sığortaedən” sözləri, ikinci cümləsinə “vergi ödəyicisinə” sözlərindən sonra “və ya sığortaedənə” sözləri əlavə edilsin;

**17.4.** 19.5-ci bəndə “sahibkarlıq fəaliyyətini” sözlərindən sonra “və ya sığortaedənin təsərrüfat fəaliyyətini” sözləri əlavə edilsin.

**18.** 21-ci hissə üzrə:

**18.1.** 21.1.4-cü yarımbənddə “malların” sözü “, məcburi nişanlama ilə nişanlanmamış və ya saxta məcburi nişanlama ilə nişanlanmış malların, habelə markalanmalı olan, lakin markalanmamış dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və videomaterialların, mal və məmulatların və dini məzmunlu başqa məlumat materiallarının” sözləri ilə əvəz edilsin;

**18.2.** 21.1.5-ci yarımbəndə “pozulmasının” sözündən sonra “və ya sosial sığorta və işsizlikdən sığorta haqqında qanunvericiliyin (məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta

haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə) tələblərinin pozulmasının” sözləri əlavə edilsin;

**18.3.** 21.5-ci bəndə “vergi ödəyicisi” sözlərindən sonra “və ya sığortaedən” sözləri əlavə edilsin;

**18.4.** 21.6-ci bənd aşağıdakı redaksiyada verilsin:

“21.6. Sənədlər və nümunə kimi əşyalar vergi ödəyicisinin və ya sığortaedənin iş vaxtı (faktiki iş vaxtı) ərzində götürülür.”;

**18.5.** 21.10-cu bəndə “Vergi ödəyicisinin” sözlərindən sonra “və ya sığortaedənin” sözləri əlavə edilsin.

**19.** 22.6-cı bənd ləğv edilsin.

**20.** 26-cı hissə üzrə:

**21.1.** 26.1.22-ci yarımbənddə “yaranması” sözündən sonra “, habelə hüquqi şəxsin nizamnamə kapitalındakı iştirak payı və ya səhmlərin xalis aktivlərin iştirak payı və ya səhmlərə mütənasib dəyərindən yuxarı və aşağı qiymətə təqdim edilməsi halları” sözləri əlavə edilsin;

**21.2.** 26.1.24-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“26.1.24. aktivlər əvəzsiz əsasla və ya güzəştli qiymətlə təqdim edildikdə aktivlərin bazar qiyməti, habelə daşınmaz əmlakın (sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan yaşayış fondu istisna olmaqla) aylıq icarə haqqının məbləğinin Vergi Məcəlləsinin 14-cü maddəsinə uyğun olaraq müəyyən edilən bazar qiymətinə uyğunluğu;”;

**21.3.** aşağıdakı məzmunda 26.1.27-1-ci, 26.1.27-2-ci və 26.1.27-3-cü yarımbəndlər əlavə edilsin:

“26.1.27-1. İnvestisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ investisiya edilmədikdə, habelə Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş qaydada nəzərdə tutulan hallarda investisiya təşviqi sənədi ləğv edildikdə investisiya layihəsinin icrasına başlandığı tarixdən etibarən Məcəllə ilə müəyyən edilmiş vergi azadolmaları tətbiq edilən gəlir (mənfəət) üzrə vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsi halları. Bu zaman vergilərin yenidən hesablanması yoxlama ilə əhatə edilən sonuncu hesabat dövründə həyata keçirilir;

26.1.27-2. Vergi Məcəlləsində nəzərdə tutulmuş azadolmaların düzgün tətbiqi və bəyan edilməsi;

26.1.27-3. Vergi ödəyicisinin hesabat ilinin mənfəətinin Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən meyarlara cavab verən elm, təhsil, səhiyyə, idman

və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara köçürülən hissəsinin Vergi Məcəlləsinə uyğunluğunun yoxlanılması;”.

**22.** 27-ci hissə üzrə:

**22.1.** 27.1.7-1-ci və 27.1.7-2-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“27.1.7-1. malların alışını təsdiq edən elektron qaimə-fakturanın, elektron vergi hesab-fakturasının, Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş qaydada müəyyən edilmiş hallarda tərtib olunan alış aktlarının, idxal mallarına münasibətdə idxal gömrük bəyannaməsinin, habelə Vergi Məcəlləsinin 130.1-1-ci maddəsində nəzərdə tutulan sənədlərin olması;

27.1.7-2. bank əməliyyatlarını həyata keçirən şəxslərdən, dövlət hakimiyyəti, yerli özünüidaəetmə orqanları və büdcə təşkilatlarından, notariuslardan alınmış (işlər, xidmətlər) istisna olmaqla vergi ödəyiciləri tərəfindən təqdim edilmiş mallara (işlərə, xidmətlərə) görə verilmiş nəzarət-kassa aparatının çeki və ya qəbz əsasında həmin malların (işlərin, xidmətlərin) dəyərinin xərcə aid edilib-edilməməsi;”;

**22.2.** 27.1.13-cü və 27.1.29-cu yarımbəndlərə “mühasibat” sözündən sonra “uçotu” sözü əlavə edilsin;

**22.3.** 27.1.60-cı yarımbənddə “ilkin sənədlərə” sözləri “ilkin uçot sənədlərinə” sözləri ilə əvəz edilsin;

**22.4.** aşağıdakı məzmunda 27.1.69-2-ci yarımbənd əlavə edilsin:

“27.1.69-2. KOB klasterin iştirakçısı olan fərdi sahibkarın və ya hüquqi şəxsin KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal (iş, xidmət) üzrə əldə etdiyi gəlirin və ya mənfəətin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsinin düzgünlüyü;”.

**23.** aşağıdakı məzmunda 28.1.17-1-ci yarımbənd əlavə edilsin:

“28.1.17-1. vergi ödəyicisi tərəfindən işçiyə (təhtəlhesab şəxsə) verilmiş təhtəlhesab vəsait Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada geri qaytarılıb-qaytarılmaması;”.

**24.** 29-cu hissə üzrə:

**24.1.** aşağıdakı məzmunda 29.1.5-1-ci yarımbənd əlavə edilsin:

“29.1.5-1. Vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan fiziki şəxslər tərəfindən “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununun 3.5-ci maddəsində göstərilən malların təqdim edilməsindən əldə edilən gəlirlərindən (Vergi Məcəlləsi ilə vergidən azad olunan gəlirlər istisna olmaqla) verginin tutulub-tutulmaması;”;

**24.2.** 29.1.6-cı yarımbənddə “dividenddən” sözündən sonra “, o cümlədən Vergi Məcəlləsinin 122.4-cü maddəsinə əsasən dividend ödəmələrinə bərabər tutulan ödəmələrdən” sözləri əlavə edilsin;

**24.3.** 29.1.10-cu yarımbənddə “tutulması” sözündən sonra “, habelə Vergi Məcəlləsinin 116.2-ci maddəsinin tələblərinə əməl edilməsi” sözləri əlavə edilsin;

**24.4.** 29.1.14-1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“29.1.14-1. Vergi Məcəlləsinin 128-ci maddəsində nəzərdə tutulan güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) şəxslərə, o cümlədən digər ölkələrdə olan filial və ya nümayəndəliklərinə, habelə güzəştli vergi tutulan ölkələrdə olan bank hesablarına rezidentlərin və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəlikləri tərəfindən birbaşa və ya dolayısı ilə edilən ödənişlərdən (alınmış borclar üzrə qaytarılan borcun əsas məbləği (faizlər nəzərə alınmadan) istisna olunmaqla) verginin tutulması;”.

**25.** 30-cu hissə üzrə:

**25.1.** aşağıdakı məzmunda 30.1.6-1-ci yarımbənd əlavə edilsin:

“30.1.6-1. Vergi Məcəlləsinin 156.1-1-ci maddəsi ilə qeydiyyata alınan vergi ödəyiciləri tərəfindən həmin maddənin tələblərinə əməl edilməsi;”;

**25.2.** 30.1.14-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“30.1.14. Vergi ödəyicisinin ƏDV-yə cəlb edilən və ƏDV-dən azad olunan əməliyyatları üzrə Vergi Məcəlləsinin 175.1-ci maddəsinə əsasən aparılmış əvəzləşmənin Vergi Məcəlləsinin 175.4-cü maddəsinin tələblərinə uyğunluğu;”;

**25.3.** aşağıdakı məzmunda 30.1.22-1-ci yarımbənd əlavə edilsin:

“30.1.22-1. İnvestisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğin investisiya edilmədikdə, habelə Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş qaydada nəzərdə tutulan hallarda investisiya təşviqi sənədi ləğv edildikdə investisiya layihəsinin icrasına başlandığı tarixdən etibarən Məcəllə ilə müəyyən edilmiş vergi azadolmaları tətbiq edilən əməliyyatlar üzrə vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsi halları. Bu zaman vergilərin yenidən hesablanması yoxlama ilə əhatə edilən sonuncu hesabat dövründə həyata keçirilir;”.

**26.** 32-ci hissə üzrə:

**26.1.** 32.1.7-ci yarımbənddə “mühasibat hesabatlarında və balansda” sözləri “maliyyə hesabatlarında” sözləri ilə əvəz edilsin;

**26.2.** Aşağıdakı məzmunda 32.1.11-1-ci və 32.1.11-2-ci yarımbəndlər əlavə edilsin:

“32.1.11-1. İnvestisiya təşviqi sənədini almış hüquqi şəxs və fərdi sahibkar tərəfindən əmlakın əldə edilmə tarixi;

32.1.11-2. İnvestisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ investisiya edilmədikdə, habelə Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş qaydada nəzərdə tutulan hallarda investisiya təşviqi sənədi ləğv edildikdə investisiya layihəsinin icrasına başlandığı tarixdən etibarən Məcəllə ilə müəyyən edilmiş vergi azadolmaları tətbiq edilən əmlak üzrə əmlak vergisinin hesablanması və dövlət büdcəsinə ödənilməsi halları. Bu zaman vergilərin yenidən hesablanması yoxlama ilə əhatə edilən sonuncu hesabat dövründə həyata keçirilir;”.

**27.** Aşağıdakı məzmunda 33.1.9-1-ci yarımbənd əlavə edilsin:

“33.1.9-1. İnvestisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ investisiya edilmədikdə, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada nəzərdə tutulan hallarda investisiya təşviqi sənədi ləğv edildikdə investisiya layihəsinin icrasına başlandığı tarixdən etibarən Məcəllə ilə müəyyən edilmiş vergi azadolmaları tətbiq edilən torpaq üzrə torpaq vergisinin hesablanması və dövlət büdcəsinə ödənilməsi halları. Bu zaman vergilərin yenidən hesablanması yoxlama ilə əhatə edilən sonuncu hesabat dövründə həyata keçirilir;”.

**28.** 34-cü hissə üzrə:

**28.1.** 34.1-ci bənd ləğv edilsin;

**28.2.** 34.2-ci bənddən “01.01.2015-ci il tarixdən sonrakı dövr üçün” sözləri çıxarılsın.

**29.** 36-cı hissə üzrə:

**29.1.** 36.1.4-cü yarımbənddən “ticarət və (və ya)” sözləri çıxarılsın;

**29.2.** 36.1.15-ci yarımbənddə “ilkin sənədlərə” sözləri “ilkin uçot sənədlərinə” sözləri ilə əvəz edilsin;

**29.3.** 36.1.15-1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“36.1.15-1. malların alışını təsdiq edən elektron qaimə-fakturanın, elektron vergi hesab-fakturasının, Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş qaydada müəyyən edilmiş hallarda tərtib olunan alış aktlarının, idxal mallarına münasibətdə idxal gömrük bəyannaməsinin, habelə Vergi Məcəlləsinin 130.1-1-ci maddəsində nəzərdə tutulan sənədlərin olması;”;

**29.4.** 36.1.16-cı yarımbənddə “notariuslar” sözündən sonra “və ixtisaslaşdırılmış hərrac təşkilatları” sözləri əlavə edilsin.

**30.** 41.1.11-ci və 41.1.12-ci yarımbəndlərdə “ilkin sənədlər” sözləri “ilkin uçot sənədləri” sözləri ilə əvəz edilsin.

**31.** Aşağıdakı məzmunda 46.3-cü bənd əlavə edilsin:

“46.3. Yoxlama zamanı yoxlanılan vergi ödəyicisi ilə qarşılıqlı əlaqədə olan vergi ödəyicilərindən sənədlərin alınması zərurəti yarandıqda vergi orqanı tərəfindən “Vergi yoxlamasının keçirilməsi üçün zəruri olan sənədlərin təqdim olunması haqqında Qərar” (Əlavə 23-1) qəbul olunur.”.

**32.** Aşağıdakı məzmunda 46-2-ci hissə əlavə edilsin:

“46-2. Məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının yoxlanılması

46-2.1. Məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının yoxlanılması zamanı aşağıdakılar araşdırılmalıdır:

46-2.1.1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində elektron qaydada qeydiyyata alınmış əmək müqaviləsi bildirişləri üzrə məlumatların səyyar vergi yoxlaması zamanı müəyyən edilən faktiki məlumatlara uyğunluğu vəziyyəti;

46-2.1.2. işçilərin məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta məqsədləri üçün uçota alınıb-alınmaması;

46-2.1.3. yoxlanılan dövr üçün məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqları üzrə təqdim olunan hesabatların tərtibinin düzgünlüyü və hesabatdakı məlumatların ilkin mühasibat sənədlərindəki məlumatlara uyğunluğu;

46-2.1.4. yoxlanılan dövr üçün məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqları hesablanan və hesablanmayan gəlirlər;

46-2.1.5. məcburi dövlət sosial və işsizlikdən sığorta haqlarının hesablanması və ödənilməsi vəziyyəti.

46-2.2. Araşdırmanın nəticəsi səyyar vergi yoxlaması aktında ətraflı qeyd edilməlidir.”.

**33.** Aşağıdakı məzmunda 46-3-cü hissə əlavə edilsin:

“46-3. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə əməl edilməsinin yoxlanılması

46-3.1. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə əməl edilməsinin yoxlanılması zamanı aşağıdakılar araşdırılmalıdır:

46-3.1.1. Mühasibat uçotu subyekti (kredit təşkilatları, sığorta şirkətləri, investisiya fondları və bu fondların idarəçiləri, habelə qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər istisna olmaqla) tərəfindən “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun mühasibat uçotunun aparılması;

46-3.1.2. Mühasibat uçotu subyektinin (kredit təşkilatları, sığorta şirkətləri, investisiya fondları və bu fondların idarəçiləri, habelə qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər istisna olmaqla) rəhbəri tərəfindən müvafiq struktur bölmə yaradılmaqla və ya müqavilə əsasında sahibkarlıq subyektləri cəlb edilməklə mühasibat uçotu xidmətinin göstərilməsinin təşkil edilməsi. Nəzərə alınmalıdır ki, mikro və kiçik sahibkarlıq subyektlərinin rəhbərləri və fərdi sahibkarların şəxsən özləri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş mikro və kiçik sahibkarlıq subyektlərində uçotun aparılması qaydalarına uyğun olaraq mühasibat uçotunu aparmaq hüququna malikdirlər;

46-3.1.3. Kredit təşkilatları, sığorta şirkətləri, investisiya fondları və bu fondların idarəçiləri, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər istisna olmaqla, digər ictimai əhəmiyyətli qurumların, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, iri sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin baş mühasiblərinin peşəkar mühasiblər olması.

46-3.2. Araşdırmanın nəticəsi səyyar vergi yoxlaması aktında ətraflı qeyd edilməlidir.”.

**34.** 47.8-ci bənddə “Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə” sözləri “Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinə” sözləri ilə əvəz edilsin.

**35.** 48-ci hissə üzrə:

**35.1.** 48.2-ci bəndə “nəticələri” sözündən sonra “və ya sığortaedənin ödəməli olduğu məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması ilə bağlı məlumatlar” sözləri əlavə edilsin;

**35.2.** 48.3-cü bəndə hər iki halda “vergi qanunvericiliyinin” sözlərindən sonra “və ya sosial sığorta və işsizlikdən sığorta haqqında qanunvericiliyin (məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə)” sözləri əlavə edilsin;

**35.3.** 48.4-cü bəndə “Vergi qanunvericiliyinin” sözlərindən sonra “və ya sosial sığorta və işsizlikdən sığorta haqqında qanunvericiliyin (məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə)” sözləri əlavə edilsin;

**35.4.** 48.5-ci bənddə “faktlarının təsdiq edilməsi üçün sübutlara” sözləri “və ya sosial sığorta və işsizlikdən sığorta haqqında qanunvericiliyin (məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə

münasibətdə) tələblərinin pozulması faktlarının təsdiq edilməsi üçün sübutlara müvafiq olaraq" sözləri ilə əvəz edilsin;

**35.5.** 48.5.1-ci yarımbənddə "ilkin sənədlər" sözləri "ilkin uçot sənədləri" sözləri ilə əvəz edilsin;

**35.6.** 48.5.2-ci yarımbənddə "və fərdi sahibkarın" sözləri ", fərdi sahibkarın və ya sığortaedənin" sözləri ilə əvəz edilsin;

**35.7.** 48.8-ci bəndə "vergi ödəyicisinin" sözlərindən sonra "və ya sığortaedənin müvafiq olaraq" sözləri əlavə edilsin;

**35.8.** 48.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"48.9. Səyyar vergi yoxlaması aktı yoxlayıcılar və yoxlanılan vergi ödəyicisinin rəhbəri (onu əvəz edən şəxs) və ya fərdi sahibkar, yaxud sığortaedən (onların səlahiyyətli nümayəndəsi) tərəfindən imzalanır.";

**35.9.** 48.10-cu, 48.19-cu bəndlərə ismin müvafiq hallarında "vergi ödəyicisi" sözlərindən sonra ismin müvafiq hallarında "və ya sığortaedən" sözləri əlavə edilsin;

**35.10.** 48.12-ci bəndin birinci cümləsinə "Vergi ödəyicisi" sözlərindən sonra "və ya sığortaedən" sözləri, ikinci cümləsinə "vergi ödəyicisinin" sözlərindən sonra "və ya sığortaedənin" sözləri əlavə edilsin;

**35.11.** 48.13-cü bəndə "Vergi ödəyicisi" sözlərindən sonra "və ya sığortaedən" sözləri, "fərdi sahibkar" sözlərindən sonra ", yaxud sığortaedənin" sözləri əlavə edilsin;

**35.12.** 48.14-cü, 48.15-ci və 48.17-ci bəndlərə ismin müvafiq hallarında "Vergi ödəyicisi" sözlərindən sonra ismin müvafiq hallarında "və ya sığortaedən" sözləri əlavə edilsin;

**35.13.** 48.16-cı bəndin birinci cümləsinə hər iki halda "vergi ödəyicisinin" sözlərindən sonra ", yaxud sığortaedənin" sözləri, ikinci və üçüncü cümlələrinə ismin müvafiq hallarında "Vergi ödəyicisi" sözlərindən sonra ismin müvafiq hallarında "və ya sığortaedən" sözləri əlavə edilsin;

**35.14.** 48.18-ci bəndə "vergi ödəyicisi" sözlərindən sonra "və ya sığortaedən" sözləri, "vergi öhdəliyi" sözlərindən sonra "və ya məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqları üzrə öhdəliyi" sözləri əlavə edilsin;

**35.15.** 48.20-ci bənddə "Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada götürülmüş, habelə vergi ödəyicisi tərəfindən təqdim edilmiş sənədlərə və vergi yoxlaması aktına, vergi qanunvericiliyinin pozulması hallarına və onların aradan qaldırılması və müvafiq sanksiyaların (cərimələrin)" sözləri "və ya sığortaedəndən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada götürülmüş, habelə vergi ödəyicisi və ya sığortaedən tərəfindən təqdim edilmiş sənədlərə və vergi yoxlaması aktına, vergi qanunvericiliyinin və ya sosial sığorta və işsizlikdən sığorta

haqqında qanunvericiliyin (məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə) pozulması hallarına və onların aradan qaldırılması və müvafiq maliyyə sanksiyalarının" sözləri ilə əvəz edilsin.

**36.** 49-cu hissə üzrə:

**36.1.** 49.2.1-ci yarımbəndə birinci halda "vergi ödəyicisinin" sözlərindən sonra "və ya sığortaedənin" sözləri əlavə edilsin;

**36.2.** Aşağıdakı məzmunda 49.3.1-1-ci yarımbənd əlavə edilsin:

"49.3.1-1. yoxlamanın sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə məlumat;";

**36.3.** 49.3.3-cü yarımbəndə "ünvanı" sözündən sonra "və ya sığortaedənin ünvanı" sözləri əlavə edilsin;

**36.4.** 49.3.5-ci yarımbəndə birinci halda "vergi ödəyicisinin" sözlərindən sonra "və ya sığortaedənin" sözləri, "vergi ödəyicisi" sözlərindən sonra "və ya sığortaedən" sözləri əlavə edilsin;

**36.5.** 49.3.6-cı, 49.3.9-cu və 49.3.10-cu yarımbəndlərə "vergi ödəyicisinin" sözlərindən sonra "və ya sığortaedənin" sözləri əlavə edilsin;

**36.6.** 49.3.12-ci yarımbənddən "mühasibat uçotunun forması və" sözləri çıxarılsın;

**36.7.** 49.4-cü bəndə "pozuntularının" sözündən sonra "və ya sosial sığorta və işsizlikdən sığorta haqqında qanunvericiliyin (məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə) tələblərinin pozulmasının" sözləri əlavə edilsin;

**36.8.** 49.5.2-ci yarımbəndə "vergi dövrü" sözlərindən sonra "və ya sosial sığorta və işsizlikdən sığorta haqqında qanunvericiliyin (məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə) tələblərinin pozulması halları faktlarla əsaslandırılmalı, pozuntunun aid olduğu dövr " sözləri əlavə edilsin;

**36.9.** 49.5.3-cü yarımbənddə "göstəricilərlə," sözləri "göstəricilərlə və ya sığortaedən tərəfindən təqdim edilmiş hesabatlarda məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması və ödənilməsi ilə bağlı göstəricilərlə" sözləri ilə əvəz edilsin;

**36.10.** 49.5.6-cı yarımbəndə "vergi pozuntusu" sözlərindən sonra "və ya sosial sığorta və işsizlikdən sığorta haqqında qanunvericiliyin (məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə) tələblərinin pozulması" sözləri əlavə edilsin;

**36.11.** 49.5.13-cü yarımbəndə “fərdi sahibkar” sözlərindən sonra “, yaxud sığortaedən” sözləri əlavə edilsin;

**36.12.** 49.5.14-cü yarımbəndə “haqqında” sözündən sonra “və ya sosial sığorta və işsizlikdən sığorta haqqında qanunvericiliyin (məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə) tələblərinin pozulmaması faktı, hesabatların müvafiq olaraq “Sosial sığorta haqqında” və ya “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanunları ilə müəyyən edilən müddətdə verilməsi haqqında” sözləri əlavə edilsin;

**36.13.** 49.6.1-ci, 49.6.2-ci və 49.6.4-cü yarımbəndlərə “verginin” sözlərindən əvvəl “məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının və ya” sözləri əlavə edilsin.

**37.** 50-ci hissə üzrə:

**37.1.** 50.2.1-ci, 50.2.2-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“50.2.1. “Vergi ödəyicisinin və ya sığortaedənin vergi qanunvericiliyinin və ya sosial sığorta qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında Qərar” (Əlavə 27);

50.2.2. “Vergi ödəyicisinin və ya sığortaedənin vergi qanunvericiliyinin və ya sosial sığorta qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsindən imtina olunması haqqında Qərar” (Əlavə 28);”;

**37.2.** Aşağıdakı məzmunda 50.2.4-cü, 50.2.5-ci, 50.2.6-cı yarımbəndlər və 50.2-1-ci bənd əlavə edilsin:

“50.2.4. “Əvvəlki səyyar vergi yoxlamasının nəticəsi üzrə qəbul edilmiş qərarın qüvvədə saxlanılması haqqında Qərar” (Əlavə 33);

50.2.5. “Əvvəlki səyyar vergi yoxlamasının nəticəsi üzrə qəbul edilmiş qərarın tam və ya qismən ləğv edilməsi və ya qərara dəyişikliklər edilməsi haqqında Qərar” (Əlavə 34);

50.2.6. “Səyyar vergi yoxlamasının nəticələrinə baxılması haqqında Qərar” (Əlavə 35).

50.2-1. Qaydaların 50.2.4-cü – 50.2.6-cı yarımbəndlərinin müddəaları Vergi Məcəlləsinin 38.3-cü maddəsində nəzərdə tutulmuş əsas üzrə keçirilən səyyar vergi yoxlamasının materiallarına baxılmanın nəticələri üzrə qəbul olunan qərarlara münasibətdə tətbiq edilir.”;

**37.3.** 50.3-cü, 50.5-ci, 50.6-cı, 50.7-ci, 50.9-cu, 50.11-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“50.3. Səyyar vergi yoxlaması zamanı vergi ödəyicisi və ya sığortaedən tərəfindən vergi qanunvericiliyinin və ya sosial sığorta qanunvericiliyinin pozulması halları (məcburi dövlət sosial sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə) aşkar edildikdə “Vergi ödəyicisinin və ya sığortaedənin vergi qanunvericiliyinin və ya sosial

sığorta qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında Qərar” (Əlavə 27) çıxarılır.

50.5. “Vergi qanunvericiliyinin və ya sosial sığorta qanunvericiliyinin pozulmasına görə şəxsin məsuliyyətə cəlb edilməsi haqqında Qərar”da (Əlavə 27) vergi qanunvericiliyinin və ya sosial sığorta qanunvericiliyinin pozuntusunu və müvafiq məsuliyyət tədbirlərini, habelə vergi ödəyicisinin və ya sığortaedənin şikayət vermə hüququnu nəzərdə tutan normativ hüquqi aktların konkret maddələri göstərilməklə müvafiq qeydlər aparılmalıdır.

50.6. Səyyar vergi yoxlaması zamanı vergi ödəyicisi və ya sığortaedən tərəfindən vergi qanunvericiliyinin və ya sosial sığorta qanunvericiliyinin pozulması halları (məcburi dövlət sosial sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim edilməsinə münasibətdə) aşkar edilmədikdə “Vergi ödəyicisinin və ya sığortaedənin vergi qanunvericiliyinin və ya sosial sığorta qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsindən imtina olunması haqqında Qərar” (Əlavə 28) çıxarılır.

50.7. “Vergi ödəyicisinin və ya sığortaedənin vergi qanunvericiliyinin və ya sosial sığorta qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsindən imtina olunması haqqında Qərar”da (Əlavə 28) vergi qanunvericiliyinin və ya sosial sığorta qanunvericiliyinin pozulmasına görə vergi ödəyicisinin və ya sığortaedənin məsuliyyətə cəlb edilməsini istisna edən hallar göstərilir.

